DÜNYA XƏBƏRLƏRİ

# Fransada meşə yanğınları 250 mindən çox insanı evindən didərgin salıb

indicə




Fransada meşə yanğınından qalxan tüstü

İyulun 27-də Fransa prezidenti **Emmanuel Makron** nəzarətdən çıxmış iri meşə yanğınları ilə bağlı böhran iclası keçirib. Yanğınlar 250 mindən çox insanı evlərindən didərgin salıb. "The Associated Press" yanğınların yayılma sürətinin azalması əlamətlərinin də olduğunu yazır.

Fransanın cənub-qərbindəki Jironda bölgəsində Parisdən dörd dəfə böyük ərazi yanaraq külə dönüb. Amma ötən gecə vəziyyət "ümumilikdə sabit" qalıb. Bu, ötən həftədən bəri davam edən yanğının əvvəlki günlərlə müqayisədə zəiflədiyini göstərir.

Yeni təxliyələr elan olunmayıb. Fransa avqustda turizm mövsümünün pik dövrünə hazırlaşır, Jirondanın rəsmi qurumları turistlərin bölgəyə axınının qarşısını almaq

məqsədilə əlavə məhdudiyyətlər tətbiq edib. Uşaqlar və əlillər üçün istirahət düşərgələrinin fəaliyyəti qadağan olunub.

Yanğınlar nəticəsində Jirondada ümumilikdə 220 min nəfər təxliyə olunub. Landlar bölgəsində isə daha 36 min nəfər evlərini tərk edib. Onların bir hissəsinə sonradan geri qayıtmağa icazə verilib.

> Hrvatski vojni piloti zajedno s drugim zračnim snagama saveznika pomažu 🇫🇷 u sklopu #rescEU misije u borbi s vatrenim stihijama! 🇭🇷🤝🇫🇷🔥 Pripadnici 855. protupožarne eskadrile #HRZ u prva dva dana angažmana ostvarili su 72 leta, 13:30 sati naleta i izbacili 402 tone vode.... pic.twitter.com/hrHgSS3N5G
>
> — MORH/MoD Croatia 🇭🇷 (@MORH_OSRH) July 26, 2026

Ondan çox ölkə yardım məqsədilə Fransa və İspaniyaya təyyarələr, helikopterlər, yanğınsöndürənlər və digər resurslar göndərib. Hər iki ölkədə yanğınlar nəticəsində 330 mindən çox insanın evini tərk etdiyi bildirilir.

Makron hökumətin böhran iclasından sonra açıqlama verməyib. Həftəsonu isə X sosial şəbəkəsində yazdığı paylaşımda yanğından zərər çəkmiş icmalara uzunmüddətli dəstək vəd edib.

İspaniyada Madrid ətrafında və Valensiya bölgəsində meşə yanğınları nəzarətdən çıxıb. Rəsmi orqanlar 76 min nəfəri təxliyə edib, daha 30 min nəfərə isə evlərini tərk etməmək göstərişi verilib.

İspaniya və Fransada bu il istilər tez başlayıb. Meşələr və kolluqlar həddindən artıq quruyub və yanğınlar görünməmiş miqyas alıb. Bu vəziyyət iqlim dəyişikliyinə qarşı daha qəti tədbirlərin görülməsi çağırışlarını gücləndirib.

İspaniyanın baş naziri **Pedro Sançes** deyib ki, **"meşə yanğınları fövqəladə iqlim vəziyyətinin nəticəsidir".**

Madriddən qərbdə Barselonanın ərazisindən beş dəfə böyük sahə yanıb.

---

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur